DOI: https://doi.org/10.36719/2789-6919/44/13-17

Sima İsmayılova
Bakı Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-9275-4269
simaismayilova375@gmail.com

Mirzə Fətəli Axundzadə irsinin biblioqrafik tədqiqi

Xülasə

Məqalədə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi M.F.Axundzadənin ədəbi-bədii irsi araşdırılıb, ədibin yaradıcılığını əks etdirən elmi ədəbiyyatın, o cümlədən biblioqrafik informasiya mənbələrinin xronoloji ardıcıllıqla təhlili verilmişdir. Eyni zamanda biblioqrafik vəsaitlərin məzmun istiqamətləri, informasiya potensiallığı, mənbələrin əhatəlilik dərəcəsi, xarakterik xüsusiyyətləri, M.F.Axundovşünaslıq elmi-təcrübi informasiya sisteminin tədqiqi zəngin arxiv materiallarına əsaslanaraq şərh edilmişdir. Məqalədə M.F.Axundzadənin şəxsi arxiv materialları ilə yanaşı, onun həyat və fəaliyyətini əks etdirən ədəbi-bədii və biblioqrafik mənbələrə istinad edilərək faktiki məlumatlar işıqlandırılmışdır. Dahi dramaturqun soyadının Axundov və ya Axundzadə olması uzun müddət mübahisə mövzusu olub. Lakin tarixi sənədlərdə 1840-cı ilə qədər ədibin soyadının Axundzadə, sonrkı dövrdə isə Axundov olaraq yazıldığı məlumdur. Hər zaman Azərbaycan xalqı bu böyük mütəfəkkirin yaradıcılığını yüksək qiymətləndirmişdir. Ötən əsrin 20-ci illərində Firudin bəy Köçərlinin yazdığı "Mirzə Fətəli Axundzadə" adlı monoqrafiyası da onun 100 illik yubileyinə verilmiş gözəl dəyərlərdəndir.

Açar sözlər: *M.F.Axundzadə, Azərbaycan ədəbiyyatı, ədəbi-bədii irs, biblioqrafik tədqiqat*

Sima Ismayilova
Baku State University
PhD in pedagogy
https://orcid.org/0000-0002-9275-4269
simaismayilova375@gmail.com

The Bibliographic Research of Mirza Fatali Akhundzadeh Heritage

Abstract

The literary and artistic heritage of M.F.Akhundzadeh, a prominent representative of the literature of Azerbaijan, was investigated in the article and the scientific literature, including bibliographic information sources, is analyzed in chronological order. At the same time, the directions of content of bibliographic materials, information potential, degree of comprehensiveness of sources, characteristic features are examined. The research of scientific-practical information system of M.F.Akhundovshunaslig studied is interpreted based on rich archival materials. In the article in addition to M.F.Akhundzadeh's personal archival materials, factual information reflecting his literary and artistic activities is highlighted by referring to bibliographic sources. Whether the surname of the great playwright was Akhundov or Akhundzadeh has long been a matter of debate. However, it is known that in historical documents up to 1840, the writer's surname was written as Akhundzadeh and later periods as Akhundov. The people of Azerbaijan have always highly appreciated the creativity of this great thinker. The monograph "Mirza Fatali Akhundzade" written by Firudin bey Kocharli in the 1920s is also one of the beautiful values given to his 100th anniversary.

Keywords: *M.F.Akhundzadeh, the literature of Azerbaijan, literary and artictic bibliographic research*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

Ümummilli lider Heydər Əliyevin mədəniyyət siyasətinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev M.F.Axundzadə şəxsiyyətini və yaradıcılığını yüksək qiymətləndirərək demişdir: "Mirzə Fətəli Axundzadə bütün həyatı boyu doğma vətəninin və xalqının tərəqqisi yolunda yorulmadan çalışaraq yeni dövrün irəli sürdüyü mühüm elmi, mədəni və ictimai-siyasi məsələlərə daim fəal münasibət ifadə edən və zamanın qabaqcıl ideyalarından bəhrələnməyə çağıran yaradıcılığı ilə Azərbaycan mədəniyyətinin inkişafı tarixində parlaq səhifə açmışdır" (Əliyev, 2010).

"Dünyada insan üçün ən böyük ləyaqət hissi özündən sonra yaxşı ad qoyub getməkdir ki, bu da yalnız yaxşı əməllər sayəsində ola bilər" deyən M.F.Axundzadənin yaradıcılığı ədəbiyyat tariximizin ən qiymətli və ən dəyərli səhifələrindəndir. O, misilsiz istedada malik mütəfəkkir, yazıçı-dramaturq, ictimai xadim olmaqla ədəbiyyat tariximizdə, yeni ədəbi-bədii məktəb yaratmış bir şəxsiyyətdir. Axundazadə 1850-1855-ci illərdə qələmə aldığı 6 komediyası ilə təkcə Azərbaycanda deyil, bütövlükdə türk-müsəlman dünyasında dramaturgiyanın əsasını qoyub.

Dahi dramaturqun soyadının Axundov və ya Axundzadə olması uzun müddət mübahisə mövzusu olub. Lakin tarixi sənədlərdə 1840-cı ilə qədər ədibin soyadının Axundzadə, sonrkı dövrdə isə Axundov olaraq yazıldığı məlumdur.

Tədqiqat

Hər zaman Azərbaycan xalqı bu böyük mütəfəkkirin yaradıcılığını yüksək qiymətləndirmişdir. Ötən əsrin 20-ci illərində Firudin bəy Köçərlinin yazdığı "Mirzə Fətəli Axundzadə" adlı monoqrafiyası da onun 100 illik yubileyinə verilmiş gözəl dəyərlərdəndir. Burada görkəmli ədib F.B.Köçərli M.F.Axundzadə şəxsiyyəti və dramaturgiyası haqqında öz dəyərli fikirlərini belə ifadə etmişdir: "Milli ədiblərimizin atası, təmsilat yazanlarımızın ustadı-kamili, ədəbiyyatımızın fəxri, şəkk-şübhəsiz M.F.Axundovdur ki, onun qələmindən ədəbiyyatın hər növ əsərləri vicuda gəlibdir: komediyaları, tənqidə dair gözəl məqalələr, abidar şeirlər, fars və türk dillərində şirin hekayələr və qeyriləri M.Fətəlinin təbirində elə bir zəriflik, yaratmaqlıq qüvvəsi var imiş ki, bunların misli az mühərrirlərdə müşahidə olunur"(F.Köçərli,1925).

1961-ci il dekabr ayının 19-da Stokholmda Ümumdünya Sülh Şurasının qərarına əsasən dünyanın bütün sülhsevər xalqları ədibin anadan olmasının 150 illiyini qeyd etmişlər. Azərbaycanın görkəmli yazıçısı və mütəfəkkiri, milli dramaturgiyamızın, realist bədii nəsrin, demokratik fəlsəfi və estetik fikrin, ilk əlifba inqilabının banisi olan M.F.Axundzadə zəngin yaradıcılıq yolu keçmişdir. Milli ədəbiyyatın taleyinə və tarixinə təsir baxımından bir maarifçi kimi M.F.Axundzadənin gördüyü işlərin hüdudları XII əsrdə Nizami, XVI əsrdə Füzuli dühası ilə müqayisə oluna bilər. Ədəbiyyatşünas-tənqidçi Arif Əmrahoğlunun sözləri ilə desək: "M.P.Vaqiflə qurtaran XVIII əsrdən yeni dövrə keçidin bütün ağırlığını çiynində daşıyan və xalqımızın ictimai-bədii və ədəbi-mədəni fikir tarixinin XIX əsrini yaradan M.F.Axundzadə (1812-1878) oldu."

Tarixi inkişafın yeni mərhələsinə uyğun olaraq M.F.Axundzadə doğma ədəbiyyatın qarşısında duran vəzifələrə böyük bəşəri vüsətlə yanaşı daha fərdi və milli bir konkretlik də gətirmişdir. Avropa tipli düşüncə sistemini, Şərq-Qərb mədəniyyətlərinin sintezini ortaya qoyan ilk böyük şəxsiyyət M.F.Axundzadə olmuşdur.

M.F.Axundzadənin zəngin və çoxşaxəli irsi əsrlər keçdikcə öz müasirliyini saxlayır, hər dövrdə yenidən tədqiq olunur, araşdırılır. Bu axtarışların coğrafiyası genişlənib, məzmunu dərinləşdikcə yeni-yeni elmi faktlar, qiymətli məlumatlar aşkara çıxır, böyük şəxsiyyətin həyatının bəzi maraqlı məqamları müəyyənləşir. Bütün bunların nəticəsində çoxsaylı sənəd kütləsi və axını yaranır ki, bu da biblioqrafik informasiya mənbələrinin yaradılmasında baza rolunu oynayır. Məhz buna görə M.F.Axundovşünaslıq elmi-təcrübi biblioqrafik informasiya sisteminin təkmilləşdirilməsi hər zaman aktuallığını saxlayan bir mövzudur. Belə bir zəngin irsin biblioqrafik cəhətdən tədqiq olunub öyrənilməsi, Azərbaycan ədəbiyyatşünaslığının inkişafında onun rolunun müəyyən edilməsi və qiymətləndirilməsi baxımından çox aktualdır. Ədibin həyat və yaradıcılığı, yaşadığı dövrün ədəbi

mühiti, sosial-siyasi hadisələr, haqqında yazılanlar, aparılan tədqiqat işləri ilə maraqlanan mütəxəssis və tədqiqatçılar ilk növbədə biblioqrafik informasiya mənbələrinə müraciət edirlər.

Yazıçının ədəbi-bədii irsini əks etdirən biblioqrafik mənbələr həm ümumi, həm də xüsusi biblioqrafik mənbələrdə əks etdirilmişdir. Xüsusi biblioqrafik mənbə dedikdə, M.F.Axundzadə haqqında çap olunan şəxsi biblioqrafik göstəricilər nəzərdə tutulur. Bu günə kimi M.F.Axundzadəyə həsr edilmiş şəxsi biblioqrafik göstəricilər, elektron məlumat bazası, biblioqrafik yaddaşlar, biblioqrafik siyahılar, metodik biblioqrafik vəsaitlər tərtib edilmişdir (İsmayılova, 2013).

M.F.Axundzadənin həyat və yaradıcılığına həsr edilmiş və 1920-40-cı illərdə tərtib edilmiş ilk biblioqrafik vəsaitlər - biblioqrafik yaddaş, biblioqrafik oçerk, müxtəsər ədəbiyyat göstəriciləri – Azərbaycan elmi-ədəbi mühitində biblioqrafik fəaliyyətin ilk nümunələri kimi meydana gəlmişdir. M.F.Axundzadəyə həsr edilmiş ilk şəxsi biblioqrafik göstərici 1948-ci ildə Hüseyn Tağıyevin tərtibi ilə M.F.Axundov adına Dövlət Kitabxanası tərəfindən nəşr edilmişdir. Biblioqrafik göstəriciyə ədibin 1937-1947-ci ilədək cap olunmuş və çap olunmamış bədii, tarixi, fəlsəfi əsərləri, tərcümələri, məktubları, həmçinin onun həyat və yaradıcılığına həsr olunmuş qəzet, məcmuə və kitablarda çap olunmuş tənqidi materiallar daxil edilmişdir. Biblioqrafik göstəricinin daha təkmilləşdirilmiş ikinci nəşri 1960-cı ildə olmuşdur. İlk nəşrdən fərqli olaraq ikinci nəşrdə verilmiş materialların xronoloji əhatəsi 1837-ci ildən 1957-ci ilə qədərki dövrü əhatə etmişdir (Tağıyev, 1948).

M.F.Axundzadə irsinin biblioqrafik tədqiqindən bəhs edərkən müəllifi Ağaəmi İbrahimov olan və 1955-ci ildə "Elm" nəşriyyatında 292 səhifədə nəşr edilmiş "M.F.Axundov arxivinin təsviri" adlı vəsaitin də adını qeyd etmək lazımdır. Arxiv materiallarının çox qiymətli mənbə olduğunu dəyərləndirən mütəxəssislər öz tədqiqatlarında bu mənbələrdən istifadə edirlər. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunub saxlanılan arxiv sənədləri arasında M.F.Axundovun arxivi öz zənginliyi və səliqəsi ilə diqqəti cəlb edir. M.F.Axundov arxivində 1300-dən çox material, o cümlədən müxtəlif şəxslərə yazdığı 154 məktubun surəti, ona göndərilən 124 məktubun orijinalı saxlanılır. "M.F.Axundov arxivinin təsviri" adlı vəsaitin daha bir əhəmiyyəti ondan ibarətdir ki, mənbədə Azərbaycan, rus və Şərq dillərində saxlanılan kitabların müəllifi, yazılma və çap olunduğu il və inventar nömrəsi göstərilməklə biblioqrafik təsviri verilmişdir (İbrahimov, 1955).

1962-ci ildə M.F.Axundzadənin anadan olmasının 150 illik yubileyi münasibətilə M.F.Axundov adına Kitabxananın əməkdaşı A.N.Lerman tərəfindən "M.F.Axundov rus mətbuatında" adlı biblioqrafik vəsait tərtib olunub nəşr edilmişdir. Rus dilində tərtib olunmuş bu vəsait rus dilli oxucular üçün nəzərdə tutulmuşdur (Lerman, 1962).

1982-ci ildə Azərbaycan KP MK-nin qərarı ilə M.F.Axundzadənin anadan olmasının 170 illiyi keçirilmişdir. Bu münasibətlə Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası tərəfindən 60 səhifəlik tövsiyə xarakterli "Mirzə Fətəli Axundov – 170" biblioqrafik göstəricisi nəşr edilmişdir. M.F.Axundzadənin zəngin elmi, ədəbi-bədii, publisistik, sosial-siyasi fəaliyyəti bütün tarixi mərhələlərdə inkişaf yolu keçərək biblioqrafik fəaliyyət nəticəsində müxtəlif xarakterli biblioqrafik informasiya mənbələrində öz əksini tapmışdır. Bütün bunlara baxmayaraq M.F.Axundzadəyə həsr edilmiş biblioqrafik informasiya mənbələrində müəyyən boşluqlar mövcud idi ki, bu da ədibin əsərlərinin Şərq və Avropa, Orta Asiya ölkələrində nəşri haqqında məlumatın verilməməsidir (Həsənova, 1982).

2012-ci ildə görkəmli ictimai xadim, maarifçi və ədəbiyyatşünas M.F.Axundzadənin anadan olmasının 200 illiyi tamam olmuşdur. Mütəfəkkir yazıçının yaradıcılığına böyük qiymət verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 200 illik yubileyin keçirilməsi haqqında 13 aprel 2010-cu ildə Sərəncam imzalamışdır.

Sərəncama əsasən M.F.Axundzadənin 200 illik yubileyi münasibətilə tərtib edilən biblioqrafik göstəricilərdən biri M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən tərtib olunmuşdur. "Mirzə Fətəli Axundzadə-200" biblioqrafik göstəricisi (2012) "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası ilə nəşr edilmişdir. Biblioqrafik göstəriciyə ədəbiyyatşünas alim Arif

Əmrahoğlu "Fikir, davat və qələm mübarizi" adlı çox məzmunlu, əhatəli, M.F.Axundzadə şəxsiyyətini, amalını səciyyələndirən oçerk yazmışdır. Oçerkdə müəllif M.F.Axundzadənin həyatı, təhsili, ictimai fəaliyyəti haqqında qiymətli fikirlər söyləmiş, bədii və dram əsərlərini dəyərləndirərək: ...Axundzadənin gülüşü ilə göz yaşları bir-birindən seçilmir. Onun əsərlərində F.Köçərli demişkən, "gülmək görünür, amma göz yaşları dərindir, görünmür. Onun ağır damcıları ürəyin üstünə düşüb onu dəlir, yaralayır..." fikirlərini misal göstərmişdir (İsmayılova, 2013).

Biblioqrafik göstəricinin "Mirzə Fətəli Axundzadənin seçilmiş fikirləri" və "Görkəmli şəxsiyyətlər Mirzə Fətəli Axundzadənin yaradıcılığı və fəaliyyəti haqqında" bölmələri biblioqrafik vəsaitin tərtibi zamanı çox vaxt, zəhmət, ciddi biblioqrafik axtarış tələb edən mərhələdir. Böyük ədibin əsərlərindən ən qiymətli fikirləri, görkəmli şəxsiyyətlərin M.F.Axundzadənin fəaliyyəti haqqında səmimi, qiymətli fikirləri olduqca maraq doğurur.

M.F.Axundzadənin seçilmiş fikirləri arasında "Oxumuşların sayı çox olan ölkələrdə təfəkkür sahiblərinin sayı da çox olur. Təfəkkür sahiblərinin çox olduğu ölkədə isə həyatın bütün sahələrində xalq gündən-günə tərəqqi edə bilər", yaxud "Dinin əsas məqsədi əxlaqdır", əgər yaxşı dost axtarırsansa, özün yaxşı dost ol. Çünki dost axtaran kəs asanlıqla səni tapsın kimi fikirləri bu günümüz üçün də böyük tərbiyəvi əhəmiyyət kəsb edir.

"Görkəmli şəxsiyyətlər Mirzə Fətəli Axundzadənin yaradıcılığı və fəaliyyəti haqqında" bölməsində görkəmli ictimai, elm, mədəniyyət, incəsənət və ədəbiyyat xadimləri, xarici ölkə yazarları M.F.Axundzadə şəxsiyyəti, yaradıcılığı, əsərləri barədə dəyərli, ürəkdən gələn fikirlər söyləmişlər.

Xalq şairi Səməd Vurğun böyük mütəfəkkirə olan hörmət və ehtiramını belə ifadə etmişdir: "M.F.Axundovun adı dünya ədəbiyyatı xəzinəsinə Nizami, Xəqani, Vaqif və M.F.Axundovun özü kimi dahi yazıçılar verən Azərbaycan xalqının qəhrəmanlıq və talant simvoludur". Görkəmli ədib Cəlil Məmmədquluzadənin dediyi "Mirzə Fətəli Axundovun barəsində ya yaxşı yazmaq lazımdır, ya da heç yazmamaq lazımdır" lakonik cümlədə çox mətləblər ifadə olunmuşdur (İsmayılova, 2013).

M.F.Axundzadənin 200 illik yubileyi ilə əlaqədar olaraq AMEA-nın Mərkəzi Elmi Kitabhxanası da 2014-cü ildə "M.F.Axundzadə" adlı şəxsi biblioqrafik göstəricini tərtib edib nəşr etdirmişdir.

Nəticə

M.F.Axundzadəyə həsr edilmiş bu biblioqrafik vəsaitlər Azərbaycan Milli biblioqrafik resursun mühüm tərkib hissəsi kimi M.F.Axundzadə irsinin tədqiqində, təbliğində, o cümlədən ədəbiyyatşünaslıq elminin biblioqrafik informasiya təminatında mühüm əhəmiyyət kəsb edir.

"Mirzə Fətəli Axundzadə-210" adlı virtual sərgi onlayn rejimdə istifadəçilərə təqdim olunub. Virtual sərgi ədibin 210 illik yubileyi münasibətilə "Qələmində hər nəsli düşünən M.F.Axundov" başlığı ilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən 2022-ci ildə hazırlanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli 211 nömrəli Qərarı ilə Mirzə Fətəli Axundzadə Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

M.F.Axundzadə şəxsiyyəti, onun əsərlərinin elmi, bədii və dünyəvi dəyəri bütün dövrlərdə aktual mövzu olmuş və gələcəkdə də öz aktuallığını saxlayacaqdır.

Ədəbiyyat

1. Araslı, H. (1938). *Mirzə Fətəli Axundov*. Azərnəşr.
2. Əliyev, İ. (2010). *Azərbaycan Respublikasının Prezidenti Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin keçirilməsi haqqında: Sərəncam*. 13aprel 2010-cu il.
3. İbrahimov, A.Ə. (1955). *M.F.Axundov arxivinin təsviri* . "Elm".
4. İsmayılova, S.P. (2013). *Mirzə Fətəli Axundov 200: biblioqrafik göstərici*. Bakı Universiteti nəşriyyatı.

5. Qasımzadə, F. (1939) *M.F.Axundov. Həyat və yaradıcılığı*. Azərnəşr.
6. Lerman, A.İ. (1962). *Mirza Fatali Akhundov v russkoi pechati 1837-1962*. Baku.
7. *Mirzə Fətəli Axundov (Səbuhi).* (1938). *Anadan olmasının 125 illiyi münasibətilə: biblioqrafik yaddaş*. Azərb. Dövlət Kitab Palatası.
8. *Mirzə Fətəli Axundov (1812-1878).* (1962). *Anadan olmasının 150 illiyi* M.F.Axundov adına Respublika Kitabxanası.
9. *Mirzə Fətəli Axundov: 170.* (1982). *Biblioqrafiya*. AEA Mərkəzi Elmi Kitabxanası. "Elm".
10. *Mirzə Fətəli Axundov-200.* (2012). *Azərbaycanın görkəmli şəxsiyyətləri seriyası.* M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.
11. *Mirzə Fətəli Axundzadə* -2010. (2014). AMEA Mərkəzi Elmi Kitabxana. "Elm".
12. Tağıyev, H. (1948). *Mirzə Fətəli Axundov.* M.F.Axundov adına Azərb. Ümumu Kitabxanası.

Daxil oldu: 24.01.2025
Qəbul edildi: 26.04.2025